# Vergilər Nazirliyi yeni ildən elektron vergi hesab fakturaları qəbul edəcək

## *Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının təşkili və iqtisadi təhlil Baş İdarəsinin rəisi Rauf Namazovun müsahibəsi*

**1. 2010-cu ilin yanvarın 1-dən etibarən ölkəmizdə elektron vergi hesab-fakturalarının tətbiqi həyata keçiriləcək. Ümumiyyətlə, elektron vergi hesab-fakturalarının tətbiqi zərurəti nədən irəli gəlib və bu, vergi ödəyicilərinə nə verəcək?**

- Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə informasiya-komminikasiya texnologiyaları sürətlə inkişaf etdirilir, "Elektron hökumət"in qurulması istiqamətində əhəmiyyətli işlər görülür. Möhtərəm prezidentin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramına (Elektron Azərbaycan)" uyğun olaraq, Vergilər Nazirliyi də vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin əhatə dairəsi daim genişləndirir. Belə ki, Vergilər Nazirliyində 2006-cı ildə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) və 2007-ci ildə İnternet Vergi İdarəsi (www.e-taxes.gov.az) yaradılmış, banklarla elektron sənəd mübadiləsinə və vergi bəyannamələrinin elektron formatda qəbuluna başlanmışdır. Bundan başqa, ƏDV depozit hesablarının tətbiqi ilə digər vergi ödəyicilərindən alınmış mallar (işlər və xidmətlər), eləcə də ölkəyə idxal olunmuş mallar üzrə ƏDV ödənişlərinin elektron formada həyata keçirilməsinə şərait yaradılmışdır.

Təqdim edilən xidmətlərin davamı olaraq 2010-cu ilin yanvarın 1-dən elektron vergi hesab-fakturalarının tətbiqinə başlanılacaq. Bu, "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" 19 iyun 2009-cu il tarixli Qanuna və Nazirlər Kabinetinin 28 sentyabr 2009-cu il tarixli Qərarı ilə təsdiq edilmiş "Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydalar"ına əsasən həyata keçiriləcək.

Ölkənin əsas iqtisadi qurumlarından olan Vergilər Nazirliyi tərəfindən daim iş proseslərində mütərəqqi texnologiyaların tətbiqinə üstünlük verilmişdir. Bu baxımdan elektron vergi hesab-fakturaları əlavə dəyər vergisi üzrə sənədlərin hərəkəti mexanizmi tam avtomatlaşdırılmış, bu sahədə vergi inzibatçılığının daha da təkmilləşdirilməsinə imkan yaranmışdır. Həmçinin, elektron vergi hesab-fakturalarının tətbiqi vergi ödəyicilərinin vergi qanunvericiliyinə əməl edilməsi ilə bağlı işlərini xeyli sadələşdirəcək. Hazırda vergi ödəyiciləri vergi hesab-fakturalarını əldə etmək üçün müvafiq maliyyə idarəsinə getməli və qanunvericilikdə nəzərdə tutulmuş məbləği ödəməlidirlər. Həmçinin, ləğv edilmiş, korlanmış, itirilmiş vergi hesab-fakturaları haqqında ayda 1 dəfə maliyyə idarəsinə məlumat verilməlidir. Nəzərə alsaq ki, bir sıra vergi ödəyiciləri qeydiyyatda olduqları rayondan kənarda fəaliyyət göstərirlər, bu məqamlar onlar üçün həm əlavə maliyyə, həm də vaxt itkisi deməkdir. Yeni ildən elektron vergi hesab-fakturalarının tətbiqindən sonra isə vergi

ödəyiciləri heç bir quruma getmədən, öz iş yerlərində bu sənədləri hazırlamaqla təqdim edə biləcəklər, maliyyə idarələrinə aylıq məlumatlara lüzum qalmayacaq.

**2. Qeyd etdiniz ki, əvvəllər vergi ödəyiciləri vergi hesab-fakturalarını maliyyə şöbələrindən əldə edirdilər. İndi elektron vergi hesab-fakturalarının mərkəzləşdirilmiş qaydada tətbiqi və uçotu Vergilər Nazirliyinə həvalə edilmişdir. Hesab-fakturalar elektron formata keçəndən sonra vergi ödəyiciləri onların əldə edilməsi üçün hər hansı məbləğ ödəyəcəklərmi?**

- Vergi orqanları ilə elektron sənəd mübadiləsi haqqında müqavilə imzalamış hər bir vergi ödəyicisinin Vergilər Nazirliyinin rəsmi internet saytının İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) səhifəsi, "e-box"u (elektron "qutu") var. Bu səhifə vasitəsilə ilə vergi ödəyiciləri qeyd olunan elektron xidmətlərdən istifadə edirlər.

Artıq 2010-cu il yanvarın 1-dən bu səhifədə daha bir altsistem - elektron vergi hesab-fakturaları altsistemi də yaradılacaq. Satıcı vergi ödəyicisi bu altsistemdə elektron vergi hesab-fakturasını hazırlayıb alıcı vergi ödəyicisinə göndərdiyi vaxt proqram təminatı tərəfindən ona seriya və nömrə veriləcək. Bu altsistemdə proqram təminatından istifadə üçün vergi ödəyicilərindən hər hansı bir məbləğin ödənilməsi nəzərdə tutulmamışdır.

**3. Elektron vergi hesab-fakturalarından necə istifadə ediləcək? Vergi ödəyicilərinin bu fakturalardan istifadə qaydaları ilə bağlı məlumatlandırılması hansı şəkildə aparılır?**

- Malı (işi, xidməti) təqdim edən vergi ödəyicisi İnternet Vergi İdarəsində vergi hesab-fakturasını hazırlayıb təsdiq etdirdikdən sonra, hesab-faktura avtomatik olaraq alıcının bu səhifədə yaradılmış şəxsi elektron "qutusu"na ötürüləcək. Sistemdə elektron vergi hesab-fakturasının ləğv edilməsi, dəqiqləşdirilmiş hesab-fakturasının göndərilməsi, verginin əvəzləşdirilməsi üçün vergi hesab-fakturaları haqqında bəyannamələrə əlavə olaraq məlumat formalarının göndərilməsi imkanları da yaradılmışdır.

Mallar (işlər, xidmətlər) satıcı vergi ödəyicisi tərəfindən ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməyən və ya elektron "qutusu" olmayan alıcılara, həmçinin pərakəndə ticarət, ictimai iaşə və məişət xidməti sahələrində təqdim edildikdə, elektron vergi hesab-fakturası alıcının tələbi ilə İnternet Vergi İdarəsinin müvafiq sistemində hazırlana, qeydə alına və çap edilə bilər. Həmçinin, bu sənəddə hüquqi şəxs olan vergi ödəyicisinin imza və möhürü, fiziki şəxs olan vergi ödəyicisinin isə imzası tələb olunur.

Artıq "Elektron vergi hesab-fakturarının proqram təminatından istifadə qaydaları" ilə bağlı Azərbaycan, rus və ingilis dillərində məlumatlandırma xarakterli xüsusi viedoçarx hazırlanmışdır. Həmin videoçarx televiziya kanallarında yayımlanır və Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmişdir. Eyni zamanda "Elektron vergi hesab-fakturarının proqram təminatından istifadə qaydaları" haqqında kitabça da hazırlanmışdır və yaxın günlərdə nəşr edilərək vergi ödəyicilərinin istifadəsinə veriləcək.

**4. Elektron vergi hesab-fakturalarının ləğvi necə həyata keçiriləcək?**

- Elektron vergi hesab-fakturasının ləğvi zərurəti yaranarsa, məsələn, aparılmış əməliyyat ləğv olunduqda, yəni göndərilmiş mallar geri qaytarıldıqda, yaxud vergi hesab-fakturası onun tərtib edilməsinə əsas verən sənədə uyğun doldurulmadıqda, hesab-fakturanı alan vergi ödəyicisi (alıcı) onu təqdim edən vergi ödəyicisinə (satıcıya) müraciət etməklə, bu hesab-fakturanın ləğvini xahiş edə bilər. Bu zaman ləğvetmə satıcı vergi ödəyicisi tərəfindən həyata keçiriləcək. Hesab-faktura ləğv edildikdən sonra alıcının "e-qutu"suna bu barədə məlumat göndəriləcək. Məlumat göndərildikdən sonra elektron vergi hesab-fakturası üzərində düzəliş aparıla bilməz, yalnız ləğv olunub yenisi (dəqiqləşdirilmiş) yaradılmalıdır.

**5. Əvvəllər vergi hüquqpozmalarının strukturunda saxta hesab-fakturalardan istifadə halları böyük yer tuturdu. Demək olarmı ki, elektron vergi hesab-fakturanın tətbiqi ilə bağlı bu sahədə hər-hansı qanun pozuntusuna yol verilməsi halları aradan qalxacaq?**

- Vergi hesab-fakturalarının mərkəzləşdirilmiş qaydada Maliyyə Nazirliyi tərəfindən çap edilməsindən sonra saxta hesab-fakturalardan istifadə halları artıq aradan qaldırılmışdır. Lakin vergi hesab-fakturalarından ƏDV fırıldaqçılığında istifadə edilməsi halları hələ də mövcuddur. Vergilər Nazirliyi bu sahəni daim ciddi nəzarətdə saxlayır. Elektron vergi hesab-fakturasının tətbiqi bu sahədə sənəd mübadiləsini tam avtomatlaşdırmaqla hər-hansı qanun pozuntusuna yol verilməsi hallarının qarşısının alınmasında nəzarətin operativliyinin daha da artırılmasına imkan yaradacaq.

**6. Vergi xidmətində müasir informasiya-kommunikasiya texnologiyaları sürətlə tətbiq edilir. Gələcəkdə elektron hökumətin qurulması istiqamətində daha hansı addımların atılması planlaşdırılır?**

- Əvvəlcə onu qeyd edim ki, elektron vergi hesab-fakturaları altsistemi hazırlanarkən AVİS-in mövcud texniki imkanları artırılmalı idi. İlk növbədə, istifadəçi sayını nəzərə alaraq, daha mütərəqqi texnologiyaya əsaslanan server avadanlığı alınmış, hər bir vergi ödəyicisinin İnternet Vergi İdarəsindəki səhifəsi və elektron qutuların yaddaş həcmi genişləndirilmişdir.

İl ərzində vergi ödəyiciləri tərəfindən 2 milyona yaxın vergi hesab-fakturaları təqdim edilir. Bu səbəbdən, məlumatların elektron arxivlərdə yerləşdirilməsi üçün yaddaş qurğularının və sistemin fasiləsiz işini təmin etmək məqsədilə, hər-hansı fövqəladə hadisə ilə əlaqədar ehtiyat sistemin yaradılması üçün avadanlıqlar da alınmışdır.

Ümumiyyətlə, AVİS-in fəaliyyətə başlaması vergi inzibatçılığında qabaqcıl texnologiyaların tətəbiqi ilə yanaşı, vergi ödəyicilərinə müxtəlif elektron xidmətlərin göstərilməsi üçün geniş imkanlar yaratmışdır. Artıq qeyd olunduğu kimi, 2008-ci ilin yanvar ayından banklarla vergi orqanları arasında elektron sənəd mübadiləsinə başlanmışdır. Bu layihənin tətbiqi nəticəsində vergi ödəyicilərinin banklarda operativ sürətdə hesab açmaları təmin edilir. Eyni zamanda, vergi ödəyicilərinə şərait yaradılmışdır ki, bank hesablarının açılması və ƏDV qeydiyyatına dayanması üçün ərizələrini vergi orqanlarına gəlmədən internet üzərindən göndərsinlər.

Bundan başqa, artıq “e-bəyannamə” sistemi tam həcmdə fəaliyyət göstərir və ƏDV ödəyiciləri tərəfindən bəyannamələrin 99,4%-i internet vasitəsilə təqdim olunur.

Hazırda sahibkarlıq subyektlərinə göstərilən e-xidmətlərin genişləndirilməsi ilə əlaqədar işlər davam etdirilir. Belə ki, cari vergi ödəmələrinin və vergi ödəyicilərinin fəaliyyətlərinin dayandırılmasına dair müraciətlərin vergi orqanlarına internet üzərindən elektron şəkildə təqdim edilməsi və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin elektron qeydiyyatının “on-line” rejimində aparılması sahəsində işlər görülür.

Həmçinin İnternet Vergi İdarəsində Elektron-kargüzarlıq altsisteminin yaradılması sahəsində işlər başa çatdırılmaqdadır. Altsistem vasitəsilə vergi ödəyiciləri ilə yazışmalar elektron formatda aparılacaq. Bu isə yazışmaların sürətlənməsinə, bununla da vergi ödəyiciləri ilə vergi oraqanları arasında daha operativ əlaqələrin qurulmasına şərait yaradacaq.